# Ordum varsa, yurdum var



**Ordu yurdun, üzərində gəzdiyin bir torpağın, vətəndaşlığın olmasını təcəssüm etdirən bir varlıqdır. O varlıq ki, hazırkı şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində güvəndik və bizə qələbə sevincini yaşatdı. O varlıq ki, şəninə mahnılar səsləndirilir, şeirlər qoşulur, necə ki, bir şeirdə deyildiyi kimi “ ordum varsa yurdum var, ordum yoxsa yurdum yox”. Azərbaycan vətəndaşı, fəxr et ki, güclü orduya sahib olan bir ölkənin vətəndaşısan.**

**Ölkəmizin Silahlı Qüvvələrinin təşkili Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. 1918-ci il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsində Silahlı Qüvvələrin yaradılması qeyd olunur. Yeni yaradılmış kabinədə hökumətin müdafiə naziri vəzifəsinə general Xosrov bəy Sultanov təyin edilir. Lakin bu kabinənin buraxılması ilə müdafiə naziri vəzifəsi ləğv edilir və ordu quruculuğu prosesinə rəhbərlik hökumətin qərarı ilə Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya həvalə edilir.**

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə general-leytenant Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi “Əlahiddə Azərbaycan korpusu” yaradıldı. Ordu quruculuğu sahəsində yeniliklərə nail olmaq üçün hökumət bir sıra tədbirlər həyata keçirdi. Hökumətin qərarına əsasən, çağırışçıların yaş senzi 19 yaşa endirildi.

Ordu quruculuğunu gücləndirmək məqsədilə 1918-ci il noyabrın 1-də Hərbi Nazirliyin yenidən bərpa edilməsinə qərar verildi. 1919-cu il yanvarın 10-da Hərbi Nazirlikdə müvəqqəti hərbi şura yaradıldı. Hərbi qanunvericilik, hərbi məsələlərin müzakirəsi və digər müvafiq qərarlar şurada həll edilirdi. Hərbi nazirin 26 mart tarixli əmri ilə Azərbaycan Ordusunda Baş Qərargah yaradıldı və general leytenant Məmməd bəy Sulkeviç qərargahın rəisi təyin edildi.

Azərbaycanda yerləşən ingilis qüvvələrinin komandanlığı 1919-cu ilin aprel ayında milli qoşun birləşmələrinin az sayda hissəsinin Bakıda yerləşdirilməsinə icazə verdi. Aprelin 5-də həmin qüvvələr Bakıya daxil oldu və Salyan kazarmalarında yerləşdirildi. 1919-cu ilin ortalarından ordu hissələrinin formalaşdırılması böyük vüsət aldı. Həmin ilin sonlarında yaradılan və əhəmiyyət kəsb edən hərbi strukturlardan biri Bakı istehkamçılar hissəsi idi. Bu hissənin məqsədi Bakı şəhərinin etibarlı müdafiəsini təmin etmək idi. Bundan başqa, hərbi istiqamətdə Bakı hərbi limanının, təyyarə dəstəsinin, zirehli avtomobillər taqımının formalaşdırılmasına başlanıldı. Eyni zamanda, mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə başlanıldı. Noyabrın 15-də ordunun Ümumi Qərargahının təsis edilməsi barədə Hərbi nazir general Səməd bəy Mehmandarov müvafiq əmr imzaladı.

Nazirliyin rəhbərliyi hərbi xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirirdi. Azərbaycan Ordusunun qanunvericilik bazasını qısa müddətdə yaratmaq mümkün olmadığı üçün hərbi nazirin 1919-cu ildə imzaladığı əmrlə keçmiş Rusiya imperiyasında 1917-ci il 1 yanvar tarixinədək qəbul edilmiş hərbi qanunvericilik aktları müvəqqəti qüvvədə saxlanıldı.1920-ci ilin mart ayında Baş Qərargahla Ümumi Qərargah birləşdirildi və Azərbaycan Ordusunun Qərargahı yaradıldı.1920-ci ildə Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra hərbi nazirlik ləğv olundu, ordu quruculuğu və Milli Ordu üçün yaradılmış maddi-texniki baza talan edildi.

1969-cu ildən sonra Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi vaxt respublikamızın hərtərəfli inkişafının təməli qoyuldu. Onun fəaliyyəti nəticəsində, digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı.Ümummilli liderin təşəbbüsü ilə ötən əsrin 70-ci illərində Bakı şəhərində ixtisaslaşdırılmış hərbi təmayüllü orta internat məktəbinin – indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirdiyi siyasəti nəticəsində gələcək Milli Ordumuzun formalaşması istiqamətində mühüm işlər görüldü.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra – 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti ordu yaradılması haqqında qanun qəbul etdi. Azərbaycan Respublikasının Konstitusiyasının 9-cu maddəsində göstərilir ki, “Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir”.

Azərbaycan Ordusunun vəzifələri, hərbi xidmətin şəraiti və xarakteri “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” 2017-ci il 29 dekabr tarixli Qanunla tənzimlənir. Ölkəmiz müasir dövrdə ordu quruculuğu sahəsində mühüm addımlar atmışdır. Belə ki, ölkəmizdə Azərbaycan Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr, Daxili Qoşunlar, Milli Qvardiya, Dövlət Sərhəd Xidmətinin Qüvvələri, Xüsusi Dövlət Mühafizə Xidməti, bundan başqa, Azərbaycan Sülhməramlı Qüvvələri xidmət göstərirlər. Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbinin də ölkəmizin müdafiə qüdrətinin artırılmasında xüsusi rolu vardır.

Ölkəmizdə hərbi qulluqçulara qayğı göstərilməsi həmişə diqqət mərkəzində olmuşdur.Hərbi xidmət keçən şəxslərin hüquq və vəzifələrini müəyyən etmək məqsədilə 1991-ci il 25 dekabr tarixində “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək, onların həyatının, səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını müəyyən edən 25 iyul 1997-ci il tarixli “ Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir.

Ümummilli liderin 13 mart 1998-ci il tarixdə imzaladığı sərəncama əsasən, Naxçıvanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialı açılmışdır. Bir il sonra isə Silahlı Qüvvələrin Hərbi Akademiyası yaradılmışdır. Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmana əsasən, 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir. Dahi öndər Silahlı Qüvvələrin kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin təşkil edilməsi barədə 1999-cu il avqustun 20-də fərman imzaladı. 2003-cü ildə Silahlı Qüvvələr Günü ulu öndər öz çıxışında demişdir: “Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər”.

Hazırkı dövrdə ölkəmiz dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müasirləşən, daim diqqət mərkəzində olan, müasir texnika və silahlarla təchiz edilmiş güclü yenilməz orduya sahibdir. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasında, Cənubi Qafqazda isə birincidir. Başlıca səbəb yenilməz ordumuzun döyüş bacarığı, ordumuzun müasir silah-sursat və texnika ilə təmin olunmasıdır.

Prezident İlham Əliyev Silahlı Qüvvələrin maddi-texniki bazasını yerli məhsullar hesabına gücləndirmək məqsədilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyini yaratdı. Bu, müharibə aparan ölkə üçün çox önəmli amil idi. Azərbaycan MDB məkanında dörd ölkədən biridir ki, onun müasir tələblərə cavab verən müdafiə sənayesi mövcuddur. Ali Baş Komandan İlham Əliyev hər çıxışında Azərbaycan Ordusunun gücünü və torpaqlarımızı azad etmək əzmində olduğunu xüsusi vurğulayırdı. 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində İlham Əliyev ordu ilə bağlı mühüm mesajlar verərək demişdir: “Biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda, beynəlxalq hüquq normaları işləmir, kim güclüdürsə o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi və beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili önəm qazandı, bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq”.

Ölkə Prezidenti, Ali Baş Komandan digər bir çıxışında xüsusi olaraq vurğulamışdır ki, ordu quruculuğu fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi ilə əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır.

Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan torpaqları 30 ilə yaxın bir müddətdə mənfur düşmənimiz olan erməni işğalçılarının əsarəti altında idi. Məhz yenilməz, şanlı ordumuz işğalçıların 30 il ərzində qurduqları istehkamları, “ordusunu” darmadağın edərək , qələbəyə imza atdı.

Ölkə Prezidenti İlham Əliyev beynəlxalq hüquq normalarına sadiqlik göstərərək, münaqişənin sülh yolu ilə, diplomatik danışıqlarla nizamlanmasına çalışır, lakin münaqişənin hərb yolu ilə həll edilməsini də istisna etmirdi. Ona görə də Ali Baş Komandan çıxışlarında “Biz nəyi nə zaman edəcəyimizi bilirik” deyirdi. Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində torpağımızın bir hissəsini geri alaraq, düşmənə öz gücünü göstərib onlara ciddi dərs verdi. Ermənistanın xarici havadarları sayəsində, münaqişə dondurulmuş və Azərbaycana stasus-kvonu qəbul etdirmək üçün yaradılmış ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin hərb yolu ilə həll edilməsinə mane olmuşdur. Nəinki mane olmuş, hətta, münaqişənin həllinin hüquqi əsasını təşkil edən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 4 qətnamə, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, ATƏT və digər beynəlxalq təşkilatların müvafiq qərarları kağız üzərində qalmışdır.

Ermənistan 30 ilə yaxın müddət ərzində beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymadan öz çirkin əməllərinə rəğmən daim ordumuzu və digər ərazilərimizi atəş altında saxlamışdır. Bununla kifayətlənməyən mənfur düşmən 2020-ci ilin iyul ayından başlayaraq, dövlət sərhədi və təmas xətti boyu hərbi təxribatlar törədərək içərisində çox sayda azyaşlı olmaqla, mülki əhalinin ölümünə səbəb oldu.

İşğalçı tərəf 2020-ci il sentyabrın 27-də hücuma keçdi və Azərbaycanın şanlı ordusunun əks-hücumu onlara baha başa gəldi... Ali Baş Komandan İlham Əliyevin əmrinə əsasən, Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı və sürətlə irəliləyərək işğal altında olan ərazilərimizin çox hissəsini düşmən əsarətindən azad etdi. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistan üzərində tam qələbə qazandı.

Prezidentimizin “dəmir yumruğu” Ermənistana 2020-ci il 10 noyabr tarixində kapitulyasiya aktına imza atdırdı və işğal edilmiş digər ərazilərimizdən öz qoşunlarını çıxarmağa məcbur etdi. Bununla da Azərbaycan, müasir silahlarla təchiz edilmiş və yenilməz bir gücə sahib olan ordumuz sayəsində ərazi bütövlüyünü bərpa edərək, 30 illik münaqişəyə son qoydu. Vətən müharibəsində şanlı ordumuzun gücünü görən Ermənistanın müdafiə naziri dedi ki, biz çox böyük bir qüvvəyə, super silahlı Azərbaycan Ordusuna qarşı vuruşduq. Biz də silahlı idik, lakin kəmiyyət və resurslar baxımından imkanlar qeyri-mütənasib idi. Onlar nəinki ordumuzun gücünü, hətta Azərbaycan xalqının öz Prezidenti ətrafında sıx birləşdiyini, Xalq – Prezident – Ordu birliyini gördü və anladı ki, bu birlik 44 günlük Vətən müharibəsində həlledici rol oynadı və zəfər qazandı. İyun ayının 15-də işğaldan azad edilmiş Şuşa şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla, Azərbaycan Prezidenti İlham Əliyev arasında imzalanmış Müttəfiqlik Bəyannaməsi düşmən üzərində qələbə qazanmış başda Ali Baş Komandan olmaqla Azərbaycan Ordusunun, Azərbaycan xalqının daha bir qələbəsi idi. Azərbaycan xalqının qürur mənbəyi olan, ŞANLI ORDUMUZ, zəfər daim səninlə olsun!

***Gülgün ŞƏFİYEVA,***
***Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının baş məsləhətçisi***

Xalq qəzeti 2021.- 24 iyun.- S.6.